1_Layout 1 27.11.2025 10:55 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 22 (710)

28 noyabr 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# YENİ GEOSİYASİ ƏMƏKDAŞLIQ MODELİ

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Yeni geosiyasi əməkdaşlıq modeli" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Zəngin və dinamik xarici siyasət bugünkü Azərbaycanın ən mühüm reallığıdır. Ölkəmizin təkcə regionumuzda deyil, onun hüdudlarından kənarda olan proseslərə də təsir və nüfuz edə bilən geosiyasi vahidə çevrilməsi dövlətimizə bir sıra qlobal hadisələrin vacib aktoru qismində çıxış etməyə imkan verir. Gündəmdəki proses və hədəflər rəsmi Bakının yiyələndiyi orta güc statusunun tələb və məsuliyyətindən irəli gələn gerçəkliyin diktə etdiyi formatdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakı regionda yeni geosiyasi əməkdaşlıq modelinin formalaşdığını bir daha nümayiş etdirdi. Bu baxımdan, Məşvərət görüşü Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında yaranan mərkəzləşdirilmiş, institusional əməkdaşlıq baxımından tarixi mərhələ kimi qiymətləndirilməlidir.

Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışında qeyd edib ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır: "Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik".



## Dialoq, inteqrasiya və sabitliyə xidmət edən müzakirələr

Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatının təşəbbüskarı Özbəkistan Prezidenti Şavkat Mirziyoyevdir. O, 2017-ci ildə BMT Baş Assambleyasının sessiyalarından birində belə görüşlərin təşkili təklifi ilə çıxış edib, 2018-ci ildə ilk dəfə Qazaxıstanda birinci görüş keçirilib, daha sonra Mərkəzi Asiyanın müxtəlif ölkələrində - Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda, Tacikistanda müvafiq görüşlərin keçirilməsinə başlanıb.

Məşvərət formatının məqsədi regionda dayanıqlı dialoq mexanizmi yaratmaq, Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı inamı və əməkdaşlığı artırmaqdan ibarətdir. Özbəkistanda keçirilən 7-ci görüşün ən mühüm məqamı isə onun "Mərkəzi Asiya + Azərbaycan" formatında təşkili, bu ildən Azərbaycanın da Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzv statusu ilə təmsilçiliyidir.

## "Mərkəzi Asiya Birliyi" modelinə keçid perspektivi

İnfrastruktur və tranzit imkanlarının inkişafı da ölkə liderlərinin müzakirələrdə diqqət yetirdikləri əsas məqamlardandır. Görüşlərdə nəqliyyat, tranzit üzrə ortaq layihələr müzakirə edilir ki, bu da Mərkəzi Asiya ölkələrinin bir-biri ilə daha sıx iqtisadi və logistika əlaqələri qurmasına kömək göstərir. Görüşlər "məşvərət" formatında keçirildiyindən, birbaşa ittifaq və yaxud birliyə bənzər suveren qərar orqanı kimi deyil, məsləhət, dialoq platforması kimi işləyir. Bu da liderlərə strateji mövzuları müzakirə etmək, ideyalar irəli sürmək və region üçün ortaq vizyon formalaşdırmaq üçün açıq meydan verir.

Son görüşlərdə artıq "Mərkəzi Asiya Birliyi" modelinə keçid ideyası müzakirə olunmaqdadır. Məsələn, əsasnamə hazırlanması, rotasiyalı katiblik yaradılması və milli koordinatorların səviyyəsi kimi yeni institutların qurulması təklif edilir.

Bu ildən Azərbaycanın da Məşvərət görüşündə tamhüquqlu iştirakçı kimi təmsilçiliyi platformanın coğrafi və siyasi dairəsinin genişlənməsi deməkdir. Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə xüsusi vurğulanıb: "Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu gün əminliklə deyə bilərik ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin formatı baş tutub. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionumuzda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib".

## Regionun gələcək siyasi xəritəsinin mühüm konturları

Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə Prezident İlham Əliyevin geniş çıxışı və səsləndirdiyi mühüm məqamlar regionun gələcək siyasi xəritəsinin mühüm konturlarını müəyyənləşdirdi. Dövlətimizin başçısının vurğuladığı əsas ideya Azərbaycanın artıq Mərkəzi Asiya əməkdaşlıq formatının tamhüquqlu üzvü olmasıdır. Bu tezis iki strateji reallığı nümayiş etdirir. Birincisi, Azərbaycan və Mərkəzi Asiya ölkələri tarixi, mədəni və mənəvi bağları artıq siyasi instituta çeviriblər. Eyni zamanda türk xalqlarının ortaq irsi, ortaq tarix və ortaq təhlükəsizlik mühitinə reaksiyaları mərkəzləşdirilmiş platformada ifadə olunur.

Mərkəzi Asiya artıq yalnız 5 ölkədən ibarət qapalı coğrafi birlik deyil. Azərbaycan Cənubi Qafqazdan Mərkəzi Asiyaya uzanan körpü kimi bu platformanın imkanlarını daha da genişləndirir. Bu inteqrasiya regionda yeni geosiyasi ağırlıq mərkəzinin - Avrasiya türk strateji məkanının formalaşdığını təsdiqləyir.

Azərbaycan bundan sonra Mərkəzi Asiya regionu çərçivəsində keçirilən dövlət başçıları sammitlərində, hökumətlərarası görüşlərdə, nazirlər səviyyəsində iclaslarda, dövlət qurumları və ictimai təşkilatların birgə platformalarında daimi və tamhüquqlu üzv kimi fəal iştirak edəcək. Bu, Azərbaycan diplomatiyasının türk dünyası ilə inteqrasiyanın yeni - institusional mərhələsinə keçidinin rəsmi təsdiqidir.

Beləliklə, ölkəmiz geniş coğrafiyalı regional siyasətin əsas oyunçusuna çevrilir. Bu baxımdan, Azərbaycan liderinin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə iştirakının çox mühüm strateji nəticələri var. İlk növbədə, Azərbaycan-Mərkəzi Asiya siyasi formatı rəsmi şəkildə təsbit olundu və ölkəmiz tam etibarlı tərəfdaş rolunu qazandı. Türk dünyası daxilində vahid strateji məkan daha da dərinləşdi. Mədəni əlaqələr real siyasi gücə çevrildi, regional əməkdaşlıq enerji və nəqliyyatdan daha geniş sahələrə yayılmış oldu.

## Mədəni irsin qorunmasına, sivilizasiyalararası dialoqa və modern inkişafa töhfə verən ölkə

Görüş ölkələrimiz arasında əlaqələrin inkişafına, türk və islam dünyasının ortaq maraqlarına xidmət göstərən digər maraqlı proqramlarla da müşayiət edildi. Daşkəndə səfərinin ilk günü Azərbaycan Prezidenti digər liderlərlə birgə Özbəkistanın paytaxtında İslam Sivilizasiyası Mərkəzi ilə tanış oldu. Türk-islam mədəniyyətinin tarixi yaddaşını müasir elmi və texnoloji platformada təqdim edən bu mərkəz Azərbaycan üçün həm mədəni diplomatiyanın, həm də türk dünyası ilə əlaqələrin güclənməsinin vacib elementidir. Mərkəzlə tanışlıq həmçinin Mərkəzi Asiya və Azərbaycan arasında mədəni və mənəvi ortaq dəyərlərin regional siyasi proseslərə real təsir etməyə başladığını bir daha göstərdi. "Dünən biz İslam Sivilizasiyası Mərkəzini ziyarət etdik. Özbəkistan Prezidentinin təşəbbüsü ilə yaradılan bu mərkəz Özbəkistan Prezidentinin ölkənin zəngin mədəni irsinə sadiqliyinin daha bir göstəricisidir. Bəzi ölkələrdə dinimizə qarşı hücumların artdığı bir şəraitdə islamofobiya sistemli xarakter alır. İslam Sivilizasiyası Mərkəzinin açılması bütün dünyaya göstərir ki, islam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İslam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün islam dünyası üçün qürur mənbəyinə çevriləcək", - Azərbaycan Prezidenti görüşdə bu məqamı xüsusi vurğuladı.

Eyni zamanda dövlətimizin başçısı cənab İlham Əliyevin noyabrın 15-də Daşkənddə keçirilmiş "Gələcəyin İrsi" beynəlxalq mükafatının təqdimat mərasimində iştirakı da Azərbaycanın regional və qlobal səviyyədə yüksələn nüfuzunu əks etdirən mühüm hadisə kimi yadda qaldı. Azərbaycanın yalnız enerji və geoiqtisadi layihələr ölkəsi kimi deyil, həm də mədəni irsin qorunması, sivilizasiyalararası dialoq və modern inkişafın təşviqi sahəsində qlobal aktor kimi rolu aydın göründü. Qeyd edək ki, ölkəmizdən bu mükafata görkəmli muğam ustası, Xalq artisti Alim Qasımov layiq görülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının Daşkənddə keçirilən 7-ci Məşvərət Görüşündə iştirakı bütün cəhətləri üzrə tarixi bir hadisədir. Ölkəmizin Cənubi Qafqaz platformasında əhəmiyyətli rolunu davam etdirməsinə paralel olaraq, eyni zamanda Mərkəzi Asiya istiqamətində fəaliyyətini genişləndirməsi zaman keçdikcə həm Azərbaycana, həm də ümumən regiona mühüm töhfələr verəcəkdir.

# QARABAĞDA HƏYAT CANLANIR

## Böyük qayıdış azad edilmiş torpaqlarda müasir şəhərsalma, sosial rifah və milli birliyin yeni mərhələsini formalaşdırır

Azərbaycan özünün qürurverici dövrünü yaşayır. Prezident İlham Əliyevin "Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq" sözləri artıq təsdiqini tapıb. Böyük qayıdış proqramının icrası ilə Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanır, yeni şəhərlər, yeni kəndlər, müasir infrastruktur və bərpa olunan enerji layihələri ölkəmizin gücünü və iradəsini bir daha nümayiş etdirir. Beş il əvvəl 30 illik həsrətə son qoyan tarixi qələbə yalnız torpaqlarımızın azad edilməsi ilə məhdudlaşmayıb, eyni zamanda bu ərazilərdə yeni inkişaf mərhələsinin başlanğıcı olub.

İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri dövlətimizin strateji baxışının, planlı fəaliyyətinin və qətiyyətli siyasi iradəsinin bariz təzahürüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu torpaqların hər qarışında Azərbaycan bayrağı əbədi dalğalanacaq və bu gün bu əminliyin əsası addım-addım möhkəmləndirilir. Artıq 60 mindən çox insan azad edilmiş ərazilərdə yaşayır, çalışır və təhsil alır. Onların hər biri təkcə evinə deyil, həm də öz həyatına, gələcəyinə qovuşur.

Qısa zaman kəsiyində ərsəyə gəlmiş layihələr Qarabağ və Şərqi Zəngəzurun dirçəliş dastanına çevrilib.



Müasir məktəblər, xəstəxanalar, sənaye zonaları, elektrik stansiyaları, su anbarları, yeni yollar və yaşayış məhəllələri bu bölgənin tam şəkildə həyat ritminə qayıtdığını göstərir. Bu gün artıq 21 mindən çox keçmiş məcburi köçkün doğma torpaqlarında daimi məskunlaşıb. Ümumilikdə 6 şəhər, 2 qəsəbə və 22 kənd köç karvanlarını qarşılayıb, bu proses ardıcıl şəkildə davam edir. Böyük qayıdışın birinci mərhələsi başa çatana qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin - 34 min 500 ailənin doğma yurdlarında daimi məskunlaşması təmin ediləcək.

Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işləri təkcə fiziki məkana həyat vermir, həm də insanlara mənəvi güc qazandırır. Uzun illər boyu həsrətlə yaşamağa məhkum edilmiş insanların qayıdışı burada icra olunan layihələrin ən böyük nəticəsi kimi dəyərləndirilir. Hər köç karvanında gözlərində həyəcan işığı olan minlərlə insan bu torpaqlara yalnız evlərinə deyil, həm də yaddaşlarına, tarixlərinə, köklərinə qayıdır. Uşaqlar ilk dəfə ata-baba yurdlarını gözləri ilə görür, yeniyetmələr valideynlərinin illərlə danışdıqları, xəyal etdikləri o torpağın ətrini duyur, ağsaqqallar və ağbirçəklər isə ömür boyu gözlədikləri anı yaşayırlar. Bu mənzərə təkcə bərpa olunmuş infrastruktur deyil, həm də yenidən qayıdan həyat enerjisinin, ruhun ifadəsidir.



Qayıdışla yanaşı, bölgədə sosial həyat da dinamik şəkildə formalaşır. Məktəblərin açılması, səhiyyə ocaqlarının istifadəyə verilməsi, mədəniyyət müəssisələrinin fəaliyyətə başlaması bu ərazilərdə yeni cəmiyyətin formalaşmasının əsasını qoyur.

Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin inkişafını ölkənin iqtisadi sisteminə inteqrasiya kimi dəyərləndirir və bu məqsədlə genişmiqyaslı infrastruktur layihələri gerçəkləşdirir. Yolların, tunellərin, körpülərin, elektrik və su təchizatı şəbəkələrinin qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" modellərinin tətbiqi Qarabağı və Şərqi Zəngəzuru bölgənin ən müasir məkanlarından birinə çevirir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə etdiyi çoxsaylı səfərlər bərpa prosesinin şəffaf, operativ və yüksək keyfiyyətlə aparılmasının təminatıdır. Sakinlərə evlərinin açarlarının təqdim olunması, yeni tikililərin açılışında iştirak, qayıdan ailələrlə səmimi görüşlər artıq ənənə halını alıb. Bu səfərlərin hər biri həm dövlətin öz vətəndaşına göstərdiyi diqqətin, həm də Qarabağa qayıdışın dövlət siyasətinin prioriteti olduğunun təsdiqidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci ildə Qarabağın azad edilmiş torpaqlarında bayrağımızı ucaldaraq söylədiyi "Biz qayıtmışıq" sözləri bu gün daha dərindən mənalanır. Qarabağa, Şərqi Zəngəzura həyat qayıdır. Dağıdılmış şəhər və kəndlər ən müasir texnologiyalar əsasında yenidən qurulur. Yol çəkilən, ev tikilən, ağac əkilən hər qarış torpaq gələcək nəsillərə miras qalacaq dirçəlişin simvoludur. Bu gün Azərbaycanın gücü, xalqımızın birliyi və dövlətimizin qətiyyəti nəticəsində Qarabağ və Şərqi Zəngəzur yalnız keçmişin həsrətini deyil, gələcəyin ümidini və quruculuq ruhunu daşıyan bölgələrə çevrilib.

**"Azərbaycan" qəzetinin materialları əsasında hazırlanıb.**

2_Layout 1 27.11.2025 11:21 Page 1



# HƏRBİ PROKURORLUQ “ELM VƏ İNNOVASİYANIN ÇAĞDAŞ HƏRBİ GÜCÜN ƏSASLARINDAN BİRİNƏ ÇEVRİLMƏSİ” MÖVZUSUNDA DƏYİRMİ MASA KEÇİRİB





Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunda Hərbi Prokurorluğun rəhbərliyinin iştirakı ilə müasir təhlükəsizlik baxışlarının yenilənməsi və hərbi sahədə elmi-innovativ yanaşmaların rolunun dərinləşdirilməsinə həsr olunmuş geniş tərkibli dəyirmi masa keçirilib.

Hərbi Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin büstünün və şəhidlər abidəsinin önünə gül dəstələri qoyulub.

Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror Bəhruz Əhmədov tədbirdə çıxışı zamanı günümüzdə müasir elmi-texnoloji inkişaf fonunda ölkəmizin müdafiə konsepsiyasında bilik, texnologiya və intellektual resursların tətbiqinin sevindirici hal olmasını, bu sahəyə diqqəti daha da artırmağın vacibliyini qeyd etməklə, “Elm və innovasiyanın çağdaş hərbi gücün əsaslarından birinə çevrilməsi” mövzusunda təşkil olunan tədbirin xüsusi əhəmiyyətini qeyd edib.

Çıxış zamanı Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin uğurla tətbiq etdiyi müasir innovasiyalar və döyüş strategiyasına diqqət ayrılmaqla, son dövrlərdə aparılan müharibələrin taleyinin yalnız ənənəvi döyüş texnikalarından deyil, saniyələr ərzində qərar verə bilən süni intellekt sistemlərindən, yeni nəsil hərbi silahlardan, yüksək dəqiqlikli zərbə vasitələrindən, pilotsuz uçuş aparatlarından, kiberəməliyyatlar və rəqəmsal müşahidə texnologiyalarından asılı olması, bu mənada elmi-nəzəri biliklərlə müasir innovasiyaların vəhdətinin zəruriliyi vurğulanıb.

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov bu kimi tədbirlərin keçirilməsində Hərbi Prokurorluğun təşəbbüsü və iştirakını müsbət qiymətləndirib, habelə tədbirin gedişində Hərbi İnstitutun zabit və müəllim heyəti ilə PUA sistemlərinin inkişaf tendensiyaları, rəqəmsal döyüş idarəçiliyinin tətbiqi, kibermüdafiə imkanlarının genişləndirilməsi, əməliyyat məlumatlarının süni intellekt vasitəsilə emalı və risklərin qabaqcadan proqnozlaşdırılması mövzularında müzakirələr aparılıb, iştirakçıların bu istiqamətlərdə təklifləri dinlənilib.

Tədbirin sonunda təhsildə fərqlənmiş kursantlara hədiyyələr təqdim edilib.

**AZƏRTAC**






# HƏRBİ HİSSƏNİN NÜMUNƏVİ BÖLÜYÜ

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə, döyüş bayrağının, anbarların, hərbi şəhərciyin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 25032 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.

Bölük komandiri baş leytenant Rəmal Vahabov söhbət zamanı qarşıya qoyulan mühüm tapşırıqların əhəmiyyətini, döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuların digərlərindən fərqləndiklərini diqqətə çatdırdı. Bildirdi ki, məsuliyyətli, eyni zamanda mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən baş leytenant R.Vahabov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Keçirilən nəzəri məşğələlərin şəxsi heyətin bilik və bacarığının artırılmasına, hərbi savadının genişlənməsinə təkan verdiyini dedi. O, yüksək fiziki göstəriciyə, zəruri hərbi savada malik, eləcə də müsbət mənəvi cəhətləri olan əsgərin əzmkar döyüşçü olduğunu vurğuladı.





Hərbi qulluqçuların döyüş təliminin təkmilləşdirilməsi, peşəkarlıqlarının artırılmasında bölük komandirinin müavini baş leytenant Yusif Əlizadənin əməyinin olduğunu xüsusi qeyd edən bölük komandiri onun verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşdığını bildirdi.

Şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsində, fəalların seçilməsi və təlimatlandırılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Nursultan Mamizadəni bacarıqlı zabit kimi xarakterizə edən baş leytenant R.Vahabov onun üzərinə düşən vəzifələri layiqincə icra etdiyini söylədi.




Qarovul xidmətinə çıxan hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili məsələsinin önəmindən danışan leytenant N.Mamizadə bunun üçün hərbi hissədə lazımi şəraitin yaradıldığını diqqətə çatdırdı.

Baş leytenant R.Vahabov, həmçinin komendant bölüyünün şəxsi heyətinin təlim-tərbiyəsi işində hissənin tərbiyə işləri üzrə bölməsinin təlimatçı-psixoloqu baş leytenant Zaur Abbasovun əməyinin olduğunu vurğulamağı unutmadı. Bir sözlə desək, təşkil olunan uğurlu xidmətin nəticəsidir ki, bu il ərzində döyüş xidməti zamanı heç bir ciddi nöqsana yol verilməyib.

Bölük komandiri yüksək döyüş hazırlığı, nümunəvi xidməti və intizamı ilə fərqlənən hərbi qulluqçuların adlarını da qeyd etdi: “Obyektlərin mühafizə və müdafiəsi qətiyyətli əsgərlər tərəfindən etibarlı şəkildə təmin olunur. Nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan bölüyün başçavuşu baş gizir Namik Məmmədov, baş əsgərlər Əliməmməd Əliyev, Məcid Balayev, Sinan Səfərov və əsgər Tural Məmmədovun adlarını çəkə bilərəm”.

**kapitan Nigar Ağayeva**

# AYRI YERLƏŞƏN XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ DƏSTƏSİ VƏZİFƏLƏRİNİ UĞURLA YERİNƏ YETİRİR

16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi vasitələrin tətbiqi dəstəsi həm müasir infrastrukturu, həm də xidməti fəaliyyəti ilə fərqlənir. Məlumat üçün bildirək ki, dəstə ilə tanışlığımız zamanı hərbi qulluqçuların istifadəsinə verilən kazarmada, eləcə də ərazidə həqiqətən də göz oxşayan səliqə-sahmanın olması diqqətimizi cəlb etdi.

Dəstə komandiri mayor Nurlan Məmmədov ictimai qaydanın və təhlükəsizliyin təmin olunması üzrə tabeliyində olan şəxsi heyətin qarşısına mühüm vəzifələrin qoyulduğunu bildirdi. Qeyd etdi ki, qarnizonda qəflətən qarşıya çıxan tapşırıqların icrasına, xüsusi tədbirlərin keçirilməsi zamanı bölmələrin dəqiq, mütəşəkkil və birgə fəaliyyətinə nail olmaq, idarəetmənin vəziyyətinin yaxşılaşdırılması sahəsində kəsərli tədbirlər həyata keçirmək, zərurət olduqda Vətənin müdafiəsi üzrə döyüş əməliyyatlarında iştirak etmək komandanlıq tərəfindən qarşılarına qoyulan tapşırıqlardır. Habelə şəxsi heyət arasında nizam-intizamı möhkəmləndirmək, gündəlik fəaliyyətdə qanunçuluğa riayət olunmasını, təhlükəsizlik qaydalarına əməl edilməsini tələb etmək də xidmətin əsasıdır.

Mayor N.Məmmədov gündəlik fəaliyyət haqqında məlumat verərkən söylədi ki, bölük növbətçisi və bölüyün gün növbətçisi, nəzarət-buraxılış məntəqəsi növbətçisinin köməkçisi, park, eləcə də əsgər yeməkxanası naryadına xüsusi vasitələrin tətbiqi və təminat bölüklərinin şəxsi heyəti cəlb olunur. Hər bir xidmətin təşkilinin aidiyyəti zabitlər tərəfindən diqqət mərkəzində saxlanıldığını deyən dəstə komandiri şəxsi heyətin qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəldiyini nəzərimizə çatdırdı.

Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, əsgər yeməkxanası və parkda xidmətin təşkili qənaətbəxşdir.

Döyüş hazırlığının yüksəldilməsi məqsədilə hərbi qulluqçuların təlimlərinə ciddi diqqət yetirildiyini qeyd edən mayor N.Məmmədov dəstə komandirinin müavini-qərargah rəisi mayor Ramin Pirməmmədovun şəxsi heyətlə keçirilən məşğələlərə şəxsən nəzarət etdiyini vurğuladı.





Komandir heyəti ilə məşğələlərə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Şəxsi heyətin nəzəri biliklərini və praktiki fəaliyyətini şəxsən yoxlayan zabitimiz daxili qayda-qanuna ciddi riayət olunmasını nəzarətdə saxlayır. Tabeliyində olan hərbi qulluqçulardan təhkim olunmuş silah və xüsusi vasitələrin təyinatını, döyüş xüsusiyyətlərini bilmələrini, onlardan istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etmələrini tələb edir.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlıqlarına, hərbi intizamlarına, qarşıya qoyulmuş tapşırıqları necə yerinə yetirmələrinə, xüsusi vasitələrin və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran mayor N.Məmmədov, həmçinin söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi.

Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də xidmətə yeni qəbul olunmuş hərbi qulluqçuların kollektivə uyğunlaşmaları da önəm verilən əsas məsələlərdir. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Ruslan Abbasovun fəaliyyəti müsbət xarakterizə edilir.

Mayor N.Məmmədov dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələn, digər hərbi qulluqçulara nümunə olan kapitan Rafiq Mikayılovun, baş çavuşlar Şükür İmanovun, Mehrac Qarayevin və əsgər Əbutalib Gülbalıyevin adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 27.11.2025 11:00 Page 1



# ŞƏHİD HƏRBİ QULLUQÇUMUZUN XATİRƏSİ EHTİRAMLA YAD OLUNUB

Vətən torpağı uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızın adları xalqımız tərəfindən həmişə uca tutulur. Onların xatirələri ehtiramla anılır, ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyətləri gənclərə örnək göstərilir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.

Hərbi zəfərimizə layiqli töhfə verən Daxili Qoşunların şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularından biri də baş çavuş Şahlar Məmmədovdur. 12318 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən xüsusi təyinatlı dəstənin bir qrup şəxsi heyətinin baş çavuş Ş.Məmmədovun Neftçala rayonunda yaşayan ailəsinə baş çəkməsi göstərilən qayğının təzahürüdür. Öncə hərbi qulluqçularımız şəhidimizin məzarını ziyarət edib, daha sonra ailə üzvlərinə baş çəkiblər. Şəhidin atası Şahin Məmmədov və anası Əzizə Məmmədova övladları barəsində qürurla danışıblar.

Anası Ə.Məmmədova söyləyib ki, Şahlar 1995-ci il noyabrın 1-də Neftçala rayonunun Ərəbqardaşbəyli kəndində doğulub. Ailənin sonbeşiyi olub. Şahların bir bacısı var.




Anası əlavə edib ki, oğlu dürüst, təmkinli, sakit xarakterli, ədəb-ərkanlı, öz mənliyini qoruyan, sözünü-sirrini, düşündüklərini heç də hər kəslə bölüşməyən, qayğıkeşliyi ilə seçilən, hər yerdə səliqəli və yerini bilən bir gənc kimi yaddaşlarda qalıb.

Atası Ş.Məmmədov bildirib ki, Şahlar ön cəbhədə olarkən evə zəng vursa da, döyüşlərdə iştirak etməsi barədə ailəsinə heç bir məlumat verməyib. Valideynləri Daxili Qoşunların döyüşlərə cəlb olunmadığını düşünüblər. Qələbə sevincinin ardınca aldıqları qara xəbər isə ailəni dərindən sarsıdıb.

Qeyd edək ki, baş çavuş Ş.Məmmədov 2014-cü ilin yanvar ayından 2015-ci ilin iyul ayınadək Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mühafizə alayında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ilin aprel ayının 23-də isə Daxili Qoşunların 12318 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb, komandanlığın ona göstərdiyi etimadı doğruldub. Funksional vəzifələrini məsuliyyətlə yerinə yetirib, təlimlərdə öz döyüş hazırlığını daim təkmilləşdirib. Təhkim olunmuş silah və xüsusi vasitələrdən məharətlə istifadə etməyi bacarıb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı müxtəlif qoşun növlərinə məxsus hərbi hissələrin şəxsi heyəti, o cümlədən Daxili Qoşunların xüsusi təyinatlı bölmələri düşmənə qarşı rəşadətlə vuruşaraq, yüksək döyüş qabiliyyəti nümayiş etdiriblər. 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyəti də müharibə başladıqda həyəcan siqnalı ilə qaldırılaraq 16077 saylı hərbi hissədə yerləşdirilib. Oktyabrın 16-da onlar Cəbrayıl rayonuna göndəriliblər. Şahların döyüş yolu da bu istiqamətdən başlayıb.



Oktyabrın 29-da aralarında Şahların da olduğu qrup Füzuli rayonu istiqamətindəki mövqelərdə cəmləşdirilib. Oktyabrın 31-də isə buradan Xocavənd rayonunun Hadrut qəsəbəsinə gəliblər. Daha sonra xüsusi təyinatlılardan ibarət qruplar Hadrutdan Tuğ, Köhnə Tağlar kəndləri və Şuşa istiqamətində hərəkət ediblər. Noyabrın 2-də Şuşa yaxınlığındakı mühüm bir yüksəkliyin ətrafına çatıblar. Bu yüksəkliyin ələ keçirilməsi, Laçın dəhlizinin, İsa bulağına gedən yolun nəzarətə götürülməsi, Ermənistandan Şuşaya dəhliz vasitəsilə canlı qüvvə göndərilməsinin qarşısının alınması, bu istiqamətdə düşmənin təchizatının pozulması, eləcə də digər döyüş tapşırıqlarının icrası Şahlar və neçə-neçə silahdaşının igidliyi, peşəkarlığı sayəsində mümkün olub. Lakin noyabrın 4-də yerləşdikləri yüksəkliyin müdafiəsində dayanan Şahlar düşmən snayperinin gülləsindən şəhid olub. Döyüş zonasından şəhidin nəşi bir neçə gün sonra təxliyyə olunub.

Şəhid hərbi qulluqçumuz Ərəbqardaşbəyli kəndinin qəbiristanlığında dəfn olunub.

Şəhidin döyüşçü yoldaşları onun barəsində xatirələrini danışarkən Şahları mərd döyüşçü, vətənpərvər, hərbi anda sadiq, cəsarətli, müharibənin bütün əziyyətlərinə dözən, pulemyot silahı ilə müdafiədə və hücumda olduğu ərazilərdə düşmənə tutarlı atəş zərbələri endirərək qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirən xüsusi təyinatlı kimi xarakterizə ediblər.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq sərəncamlarla, həmçinin müdafiə nazirinin əmrinə əsasən, baş çavuş Ş.Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalları ilə təltif edilib. "Qələbə şəhidləri" və "44 günlük müharibə xatirələrdə" kitablarında, bundan əlavə, "Ocaq" qəzetində Şahların döyüş yolu işıqlandırılıb.

Məmmədovlar ailəsinin öz təşəbbüsü ilə yaşadıqları evin önündə şəhidin barelyefi düzəldilib, evin otaqlarından birində isə xatirə guşəsi yaradılıb.

Övlad itirmək, özü də belə bir qeyrətli oğulun ölümü sözlə ifadə olunmayan ağrı-acıdır. Ailəsi üçün yeganə təskinlik isə Şahların Vətən torpaqlarının azad edilməsi naminə şəhidlik məqamına ucalmasıdır.

**kapitan Xədicə Hacızadə**

*Qazilərimiz*

# DİDƏRGİNLİK ACISI, QİSAS AMALI VƏ ŞƏRƏFLİ DÖYÜŞ YOLU

44 günlük Vətən müharibəsi zamanı ölkəmiz hərb tarixində misli görünməyən zəfər qazanıb. Yüksək döyüş qabiliyyətinə malik olan, həmçinin müasir silah-sursat və texnika ilə təchiz edilən rəşadətli ordumuzun "dəmir yumruq" zərbəsi erməni işğalçılarının başını əzib. Məğlubiyyətə uğrayan düşmənin diz çökməkdən başqa yolu qalmayıb. Möhtəşəm qələbə sayəsində respublikamızın ərazi bütövlüyü bərpa olunub. Uzun illərin torpaq həsrəti və məcburi köçkünlüyün iztirabları sona çatıb. Vətənimizdə ağılasığmaz vəhşiliklər törətmiş yağıdan onun heç vaxt unuda bilməyəcəyi qisas alınıb.

Qalib döyüşçü olmaq böyük şərəfdir. Bu ada yiyələnmək və dövlətimizin etimadını layiqincə doğrultmaq üçün igid oğullar müharibənin od-alovundan keçiblər, çətin sınaqlarla üzləşiblər. Onlardan bir çoxu şəhadət və qazilik məqamlarına yüksəlib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sabiq hərbi qulluqçusu, ehtiyatda olan baş çavuş Eyvazov Teyyub Novruz oğlu Vətən müharibəsi qazilərindən biridir. Qazi ilə Bakının Suraxanı qəsəbəsindəki yaxın qohumunun evində görüşərək ətraflı söhbət etdim. Dövlətimiz tərəfindən 2 otaqlı mənzil verilən Teyyub orada ailəsi ilə hələ yerləşməyib. O, öz həyatı, keçdiyi xidmət və döyüş yolu barəsində suallarımı cavablandırdı.

Teyyub 1991-ci il iyulun 14-də Laçın şəhərində doğulub. Atası Novruz Eyvazovun doğma yurdu Laçın rayonunun Qarıqışlaq kəndidir. Anası Bilurə Sadıqova isə Laçın şəhərində dünyaya göz açıb. B.Sadıqova əslən bəy nəslindəndir. Onun babası Teyyub Quliyev İkinci Dünya müharibəsində iştirak edərək yaralanıb. Ağır tale yaşayıb. Vətəndən kənarda, bəzi məlumatlara görə, Türkiyədə dünyasını dəyişib. Nəticəsi olan qaziyə ana babasının adı qoyulub.

Valideynlərinin ayrılması səbəbindən Teyyub ana tərəfdən babası Oruc Sadıqov və nənəsi Şəkil Sadıqovanın himayələri altında böyüyüb. Onlar öz nəvələrindən sevgi və qayğılarını əsirgəməyiblər. Hər ikisi də ömürləri boyu el-oba arasında hörmət sahibi olublar. O.Sadıqov sovet dövründə təqdirəlayiq əmək fəaliyyətinə görə "Əmək veteranı" adına və medalına layiq görülüb.

1992-ci il mayın 18-də Laçının erməni ordusu tərəfindən işğal olunması nəticəsində rayonun digər sakinləri kimi, Teyyub və doğmaları üçün də didərginlik həyatı başlayıb. Həmin vaxt Teyyubun 2 yaşı tamam olmamışdı. Məcburi köçkün kimi öncə Ağdama, ardınca Şəkiyə gediblər, daha sonra Bərdə rayonunda məskunlaşıblar. Uzun müddət çadır və qatar vaqonunda yaşamaq məcburiyyətinin əzab-əziyyətləri onun yaddaşında silinməz iz buraxıb.

Ulu Öndər Heydər Əliyev Bərdədəki çadır düşərgəsində məcburi köçkünlərlə görüşərkən o vaxt azyaşlı olan Teyyuba mehribanlıq göstərərək qucağına alıb. Bu görüş Teyyubun və ailəsinin həyatının unudulmaz



məqamına çevrilib.

Bərdə şəhərinin dəmiryol vağzalına aid olan ərazidə müvəqqəti yerləşdirilmiş Ağdam rayon 9 saylı tam orta məktəbinin məzunudur. Şagird ikən tarix, ədəbiyyat, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Gələcəkdə hərbçi olmağı arzulayıb.

Yeniyetmə vaxtından idmanın boks növü ilə məşğul olub, rayon yarışlarına qatılaraq qalib yerləri tutub. İdman fiziki inkişafı və sağlam həyat tərzini qoruyub saxlamasında vacib rol oynayıb.

Hərbi xidmətə yola düşənədək o, ev təmiri işləri üzrə usta kimi çalışıb, halal zəhmətə qatlaşıb.

2010-cu ilin yanvar ayında Teyyub müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Naftalanda yerləşən "N" saylı hərbi hissəsində hərbi and içib. Kəşfiyyat bölüyündə snayper, kəşfiyyatçı-pulemyotçu, tuşlayıcı və sonra manqa komandiri vəzifələrində xidmət edib. Müxtəlif kəşfiyyat tapşırıqlarını cəsurluqla yerinə yetirib. Hərbi hissə komandiri tərəfindən fəxri fərmanla mükafatlandırılıb. 2011-ci ilin iyul ayında xidmətini layiqincə başa vuraraq ordu sıralarından tərxis edilib.

Hərbçi olmaq arzusunu reallaşdırmaq məqsədilə və Daxili Qoşunlarda xidmət etmiş xalası oğlu baş çavuş Tural Abdullayevin məsləhətini nəzərə alaraq, Teyyub Daxili Qoşunların komandanlığına müvafiq qaydada müraciət edib. Müraciəti müsbət cavablandırılaraq o, 2014-cü ilin noyabr ayında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 16075 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunun atıcısı, xüsusi təyinatlı dəstədə snayper yarımqrupunun heyət nəfəri, xüsusi həmlə qrupunun snayperi, atıcısnayperi və pulemyotçusu vəzifələrində əzmkarcasına xidmət edərək komandanlığın etimadını doğruldub. Komandirləri tərəfindən müsbət xarakterizə olunaraq dəfələrlə mükafatlandırılıb. Silahdaşları arasında özünə hörmət qazanıb.

Döyüş təlimi və mənəvi-psixoloji hazırlığına məsuliyyətlə yanaşması, verilən tapşırıqların öhdəsindən bacarıqla gəlməsi, peşə məsləyinə vicdanlı münasibəti xidmətdə onu fərqləndirən cəhətlər olub. İnspeksiya yoxlamalarında yüksək qiymətlər alıb.

I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları zamanı, eləcə də Xızı rayonundakı Sitalçay ərazisində ictimai qaydanın və təhlükəsizliyin qorunması, Bakının Nardaran qəsəbəsi və Siyəzən rayonunda xüsusi əməliyyatların keçirilməsi, bununla yanaşı, koronavirus pandemiyası ilə əlaqədar Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu, Bakı-Şamaxı, Bakı-Xızı yollarında karantin rejiminin, paytaxtda ictimai asayişin təmin edilməsi üzrə müxtəlif tapşırıqların icrasına cəlb olunaraq peşəkarlıq nümayiş etdirib.

Vətən müharibəsindən əvvəl İsmayıllı rayonunda keçirilən xüsusi təyinatlı bölmələrin taktiki təlimlərində iştirak edərək yüksək praktiki hazırlığı ilə seçilib.

Xüsusi təyinatlının ən başlıca məramı doğma Laçına qayıtmaq, müqəddəs torpaqlarımızı düşmən tapdağından azad etmək, məcburi köçkün adını öz üzərindən götürmək olub. Bir gün bunun gerçəkləşəcəyinə inanıb. Ali Baş Komandanın döyüş əmrini səbirsizliklə gözləyib.

2020-ci il sentyabrın 27-də torpaqlarımızın işğaldan azad olunması uğrunda başlayan Vətən müharibəsinin ilk günündən Teyyub döyüşlərə atılıb. Xidmət etdiyi dəstənin hərbi qulluqçuları Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə ön cəbhənin müxtəlif istiqamətlərinə göndəriliblər. Teyyubun tərkibində olduğu qrup öncə Murovdağ istiqamətində vuruşub. Mürəkkəb relyefi, dəyişkən hava şəraiti və işğalçıların möhkəmləndirilmiş mövqeləri olan Murovdağda döyüşmək öz çətinlikləri ilə yadda qalıb. Orada ermənilərin bəzi postları ələ keçirilib, silah-sursat, durbin, döyüş xəritəsi və digər qənimətlər götürülüb. Xüsusi təyinatlı öz snayper silahı ilə erməni qumbaraatanını susdurub. Düşmən canlı itki verib, qorxuya düşən işğalçılar postlarından qaçıblar. Murovdağ silsiləsində irəliləyən hərbçilərimizin hərəkəti erməni dronu tərəfindən aşkarlanıb və nəticədə artilleriya atəşinə məruz qalıblar. Döyüşçülərimizin mövqeləndikləri ərazinin mühasirəyə alınması təhlükəsi yarandığına görə geri çəkiliblər. Minaatanların atəşi altında onlardan bir qismi şəhid olub və yaralanıb. Murovdağ döyüşlərində Teyyub öncə yüngül dərəcəli kəllə-beyin travması alıb, sonra atəş nəticəsində şəhid olan və üstünə yıxılan döyüşçünün altında qaldığından qəlpələr bədənini tutmayıb, növbəti dəfə isə partlayış dalğası onu ciddi zədələyib. Buna baxmayaraq, xüsusi təyinatlı hərbi qospitala göndərilməsi ilə razılaşmayıb, silahdaşlarını tərk etməyəcəyini deyib. Xalası oğlu



Tural Murovdağ döyüşlərində şəhadətə ucalıb, bu itki onu dərindən sarsıdıb.

Tərkibində olduğu qrupun döyüş yolu ön cəbhənin Füzuli-Cəbrayıl istiqamətində davam edib. Hər iki rayonun yaşayış məntəqələrinin azad olunması üçün qətiyyətlə vuruşublar. Xocavənd rayonunun Hadrut qəsəbəsi və Tuğ kəndləri uğrunda da qızğın döyüşlər gedib. Xocalı rayonunun Çanaqçı və Sığnaq kəndlərində də işğalçılar hərbi qulluqçularımızın həmlələri qarşısında dayana bilməyərək geri çəkiliblər. Nəhayət, ordu bölmələrimizin hücumları Şuşa istiqamətində genişlənib. Göstərilən istiqamətlər üzrə döyüşlərdə Teyyub snayper, avtomat, əl pulemyotu silahlarından məharətlə atəş açaraq erməni hərbçilərinə qan uddurub. Həmçinin işğalçıların bir sıra atəş vasitələri və avtomobillərinin sıradan çıxarılması, nəzarətimizə keçən ərazilərə onların diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması, düşmənin ataraq yiyəsiz qoyduğu silah-sursatın, texnikanın aşkarlanması, ordumuzun döyüşü idarəetmə məntəqələrinin mühafizəsi kimi tapşırıqları da silahdaşları ilə birlikdə qətiyyətlə yerinə yetirib. Cəbrayıl rayonu ərazisində Teyyub növbəti dəfə mərmi partlayışı dalğasından zədələnib. Ancaq yenə də təxliyyə olunmaq istəməyib.

Noyabrın 3-də Şuşa istiqamətində döyüş zamanı minaatan mərmisinin partlayışı nəticəsində Teyyub qapalı kəllə-beyin travması alıb və huşunu itirib. Silahdaşları onu arxa cəbhəyə təxliyyə ediblər. Səhra lazaretində döyüşçüyə həkim tərəfindən zəruri tibbi yardım göstərilib. Əhmədbəylidəki hərbi qospitalda özünə gəlib. Doğmaları orada onun yanına gəliblər. Oradan ayrı-ayrı mülki xəstəxanalara aparılıb. Bir müddət sonra Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Qospitalı və Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunub. Keçdiyi müalicə kursları başa çatdıqda xidmətə qayıdıb. Ancaq sağlamlıq vəziyyəti xidmətini davam etdirməyə imkan verməyib.

2021-ci ilin noyabr ayının 27-də Teyyub səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. Döyüşçüyə III əlillik dərəcəsi verilib və pensiya təyin olunub.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2020-ci il, Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları, müdafiə nazirinin 24 dekabr 2020-ci il tarixli əmri ilə baş çavuş T.Eyvazov "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 4 yanvar 2021-ci il tarixli əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib.

Vətən müharibəsi qaziləri kiçik gizir Bəhruz Həsənli və baş çavuş Orxan Qurbanov Teyyubla birlikdə döyüşüblər. Onlar silahdaşlarının hərbi anda sadiq, vətənpərvər, cəsarətli və fədakar hərbi qulluqçu kimi müharibə sınağından alnıaçıq keçdiyini vurğulayıblar.

Qeyd edim ki, Teyyubun digər xalası oğlu baş gizir Nurəli Novruzov da Vətən müharibəsi iştirakçısıdır. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edir.

Birinci Qarabağ müharibəsi zamanı Teyyubun anasının dayısı oğlu Etibar Məmmədov Ağdam rayonunda şəhadətə ucalıb.

Teyyub həyat yolunda ona əziz olan bir sıra doğmalarını itirib. Belə ki, himayələrində böyüdüyü babası 2007-ci ildə və nənəsi 2016-cı ildə, iki il öncə atası, bu il sentyabrın 16-da isə yeni doğulan əkiz övladları vəfat ediblər. Həyat yoldaşı Nəzavət xanım onun mənəvi dayağıdır. Ailəyə bağlılıq çətin məqamları adlamağa güc verən amildir. Qazinin Mələk adlı qızı var, məktəblidir, atası ilə fəxr edir.

Səhhəti ilə əlaqədar heç yerdə işləməsə də, Teyyub son bir neçə ildə müxtəlif texniki peşələrə yiyələnib, ayrı-ayrı tədris mərkəzləri tərəfindən təşkil olunan təlim və kurslara qatılaraq müvafiq sertifikatlar alıb.

Qələbəmizə verdiyi töhfə, doğma yurdu Laçına qovuşması Teyyubun döyüşçü missiyasını şərəflə həyata keçirməsinin təzahürüdür.

**Yalçın Abbasov**

4_Layout 1 27.11.2025 11:03 Page 1



# HACIQABULDA YERLƏŞƏN HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ EKSKURSİYA TƏŞKİL OLUNUB



Şəxsi heyətin mənəvi tərbiyəsi, maarifləndirilməsi, dünyagörüşünün, mədəni-estetik səviyyəsinin və dövlətçilik təfəkkürünün düzgün formalaşdırılması, ictimai-siyasi biliklərinin artırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzey və sərgi mərkəzlərinə ekskursiyaları mühüm əhəmiyyət kəsb edir. Digər hərbi hissələrimizdə olduğu kimi, 12318 saylı hərbi hissədə də belə tədbirlər davamlı olaraq təşkil edilir. Hərbi hissənin komandanlığı hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkilini hər zaman nəzarətdə saxlayır.



Hərbi hissənin komendant bölüyünün komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Namid Xəlilovun rəhbərliyi ilə bölüyün xidmətdə fərqlənən nümunəvi hərbi qulluqçularının Hacıqabulda yerləşən Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub.

Hərbi qulluqçulara Heydər Əliyev Mərkəzinin bələdçisi mərkəz haqqında ətraflı məlumat verib. Bildirilib ki, mərkəz 2008-ci ilin may ayından fəaliyyət göstərir. Aparılan yenidənqurma işlərindən sonra bina genişləndirilib, ümumi sahəsi 260 kvadratmetrdən 1172 kvadratmetrə çatdırılıb. Mərkəzdə əlavə olaraq ekspozisiya zalı, foto, xalq yaradıcılığı və rəsm studiyaları, elektron kitabxana, xarici dil mərkəzi, konfrans və kino zalı yaradılıb. Həmçinin qeyd olunub ki, mərkəzin fəaliyyətinin əsas istiqaməti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi irsi, dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması, gənc nəslə çatdırılmasıdır.

Burada dahi liderin uşaqlıq və gənclik illəri ilə yanaşı, zəngin fəaliyyətinin bütün dövrləri fotostendlərdə öz əksini tapır. Onun sovet hakimiyyəti illərində və ölkəmizin müstəqilliyi dövründə Hacıqabula səfərlərini, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən maraqlı fotolar toplanılıb. Bununla yanaşı, Ümummilli Liderin keçdiyi həyat yolunu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirən xatirə muzeyində onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycanın rifahı, xoşbəxt gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi tərəqqisinə yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrin inkişafına dair maraqlı fotolar, sənədlər, o dövrə aid kitablar, qəzetlər və başqa materiallar saxlanılır.



Əlavə olaraq, mərkəzin xalq yaradıcılığı studiyasında gənclər qədim və müasir xalçaçılıq, toxuculuq və naxışvurma sənətinin sirlərinə yiyələnirlər. Burada fəaliyyət göstərən rəsm studiyası isə rəssamların istedadlarını nümayiş etdirmələri üçün geniş imkanlar açır. Qeyd edilib ki, mövcud olan avtomatlaşdırılmış kitabxanada xüsusi sistemin köməyilə elektron kataloq, "Ümummilli Lider", "Yeni kitablar", "Retro kitablar", "Dövri mətbuat", "Diyarşünaslıq" və digər məlumat bazaları yaradılıb, Azərbaycan Respublikasının qanunları, Prezidentin fərman və sərəncamlarının tam mətnləri bazada yerləşdirilib və oxucular onları asanlıqla əldə edə bilirlər.

Hərbi qulluqçular mərkəzdən xoş təəssüratlarla ayrılıblar.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏZİFƏLƏRİNİN İCRASINA MƏSULİYYƏTLƏ YANAŞAN ATICI-QUMBARAATAN KÖMƏKÇİSİ

17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun nümunəvi hərbi qulluqçularından biri çavuş Tural Abduhüseynovdur. O, 1992-ci ilin mart ayının 20-də Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub. 1999-2010-cu illərdə rayonun Kötüklü kəndində yerləşən Arif Səmədov adına tam orta məktəbdə təhsil alıb. Orta təhsilini başa vurduqdan sonra 2010-2011-ci illərdə Daxili Qoşunların 12565 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

2013-cü ilin iyun ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi qrupunda xidmətini davam etdirib. 2020-ci ilin iyun ayından isə ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunun atıcı-qumbaraatan köməkçisidir. Qrup komandiri gizir Çingiz Quliyev tərəfindən nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, hərbi nizamnamələrin tələblərini bilir, qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirir. Öz silahının xüsusiyyətlərini, ondan istifadə qaydalarını dəqiqliklə öyrənir, təhlükəsizlik qaydalarına ciddi əməl edir. Bundan əlavə, hərbi qulluqçumuz xidməti tapşırıqları vicdanla və peşəkarlıqla yerinə yetirdiyinə, yüksək nizam-intizam nümayiş etdirdiyinə görə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla mükafatlandırılıb. Hissə komandanlığı tərəfindən nizam-intizamlı hərbi qulluqçu kimi xarakterizə olunur.



Qeyd edək ki, çavuş T.Abduhüseynov 2023-cü ilin sentyabr ayında Qarabağ bölgəsində keçirilən antiterror əməliyyatının da iştirakçısıdır. O, eyni zamanda respublikamızda təşkil olunan bir çox beynəlxalq yarışlar zamanı təhlükəsizliyin və ictimai asayişin qorunmasına cəlb olunub.

Hərbi qulluqçumuza xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# İNTİZAMLI VƏ BACARIQLI XƏTT NƏZARƏTÇİSİ

12565 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Orxan Şahverdiyevdir. O, 2006-cı il sentyabrın 2-də Füzuli rayonunun Horadiz şəhərində anadan olub. 2012-2021-ci illərdə 9-cu sinfədək Beyləqan şəhərində yerləşən Mehdi Mehdizadə adına 3 saylı tam orta məktəbdə, 2021-2024-cü illərdə isə Xırdalan şəhərindəki İqtisadiyyat və Humanitar Kollecində "Ətraf mühitin mühafizəsi və bərpası" ixtisası üzrə təhsil alıb.

2024-cü ilin oktyabr ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Bir müddət sonra 12565 saylı hərbi hissədə xidmətini davam etdirib. Hərbi hissədə təşkil olunan rabitə kursunu bitirdikdən sonra təminat bölüyünün rabitə taqımının xətt nəzarətçisi vəzifəsinə təyin edilib.

Əsgər O.Şahverdiyev bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissənin bölmələri ilə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.



Hərbi hissənin qərargahının rabitə və AİS xidmətinin rəisi kapitan İlkin Zeynalov tərəfindən müsbət xarakterizə olunan əsgər O.Şahverdiyev xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir.

**12565 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR



Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

16076 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidmətinin tibb məntəqəsinin həkim-terapevti tibb xidməti leytenantı Əlihüseyn Abdurəhimov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

Tibb xidməti leytenantı Ə.Abdurəhimov bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları: tibb məntəqəsinin feldşeri gizir Samir İbrahimov, tibb məntəqəsinin aptek rəisi-feldşeri gizir Zeynəb Kərimova və sanitar-təlimatçı, dezinfektor baş çavuş Aysel Əsədova qarşıya qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.

Zabit söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Həmçinin qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.

Son olaraq onu qeyd edə bilərik ki, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**kapitan Şahin Cəfərzadə**

*Həkim məsləhəti*

# HEYVANIN BİLMƏDİYİMİZ FAYDALARI

Ürəkaçan xoş ətri və turşməzə dadı ilə payız mövsümünün ən çox sevilən meyvələrindən olan heyva həm də bir çox xəstəliyin profilaktikasında və müalicəsində əvəzsiz vasitədir. Heyva meyvələri daha çox emal olunmuş şəkildə istifadə edilsə də, bu meyvədə olan pektin və dabbaq maddələri onun müalicəvi əhəmiyyətini müəyyənləşdirən əsas göstəricilərdir.

Heyva meyvəsində şəkər, turşular, pentozalar, dabbaq maddələri, pektin və protopektin, müxtəlif vitaminlər var. Meyvələrdə olan mineral maddələr (K, Na, Ca, Mq, Te, P, S, Si) 0,51 faiz təşkil edir. 100 qram meyvə 40 kilokalori verməklə qida dəyəri 0,6 qram zülal, 0,5 qram yağlar, 9,6 qram karbohidratlar, 0,8 qram kül elementləri, 84 qram su ilə müəyyənləşir.



İnsanlar heyvadan müalicə vasitəsi kimi hələ qədim zamanlardan istifadə ediblər. Hazırda isə bir sıra ölkələrin xalq təbabətində təzə, suda bişirilmiş heyva və onun həlimi bir çox xəstəliyin müalicəsində istifadə olunur.

Heyva soyuqdəyməyə, qanaxmaya qarşı yaxşı müalicə vasitəsidir. O, büzüşdürücülük, ümumi möhkəmlik yaratmaq, ödqovucu, sidikqovucu, qankəsici, qanyaradıcı, öskürəkkəsici olmaqla yanaşı, həm də xoraya qarşı, antibakterial və antiseptik xüsusiyyətlidir.

Müalicə vasitəsi kimi heyvanın meyvələri, yarpağı və toxumları istifadə edilir. Xalq təbabətində və müasir əczaçılıqda heyva meyvələrinin toxumluğundan və toxumlarından geniş istifadə edilir. Toxumlardan bəlğəmgətirici, öskürəkkəsici, mədə-bağırsaq xəstəlikləri zamanı sakitləşdirici və yumşaldıcı vasitə kimi istifadə edilir. Uşaqlarda ishal xəstəliyi zamanı heyva toxumlarından hazırlanmış sulu məhlul yaxşı nəticə verir. Həmçinin bu məhlul xalq təbabətində saçın bərkiməsi üçün də tətbiq edilir. Meyvələri, həmçinin onların cövhəri və ekstraktı qanazlığını aradan qaldırır, ürək döyüntülərini səngidir, ümumi zəifliyi aradan qaldırır. Təzə meyvələr vərəm və bronxial astma xəstəliyinə qarşı faydalıdır. Ürək-damar xəstəliklərindən şişmələr baş verdikdə heyva meyvələrindən dəmlənmiş çay olduqca xeyirlidir. Toxum həlimi yaxşı kosmetik vasitədir. O, dərini yumşaldır, həmçinin göz xəstəlikləri zamanı kompres, boğaz ağrıları (angina) zamanı qarqara kimi istifadə edilir. Heyvanın ətri ürəkaçandır. O, əhvalı yaxşılaşdırır, sıxıntıları aradan götürür. Hamilə qadınlara heyva yemək daha çox faydalıdır.

**AZƏRTAC**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR -

## ABŞ Səudiyyə Ərəbistanına F-35 qırıcılarının və 300 ədəd tankın satışını təsdiqlədi

ABŞ Prezidenti Donald Tramp Səudiyyə Ərəbistanına böyük həcmli müdafiə satış paketini təsdiqləyib. "Poliqon" xəbər verir ki, bu, Ağ Evin yaydığı məlumatda öz əksini tapıb.



Məlumatda bildirilib ki, paketə F-35 döyüş təyyarələrinin və ABŞ istehsalı olan təxminən 300 ədəd tankın tədarükü daxildir.

# Allah rəhmət eləsin

25033 saylı hərbi hissənin komandanlığı polkovnik Elçin Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin komandanlığı polkovnik-leytenant Aftandil Budaqova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan mayor Adil İsmayılovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir Xəlil Şabanovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan kiçik gizir Telman Nəhmətovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000